No: 03 2025
https://doi.org/10.64400/ea25-3-25
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# ERMƏNİLƏRİN XARİCİ ÖLKƏLƏRDƏN QƏRBİ AZƏRBAYCAN ƏRAZİSİNƏ KÖÇÜRÜLMƏSİ: SƏBƏBLƏR, NƏTİCƏLƏR

**Məleykə MAHMUDOVA**

Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
**Yazışılan müəllif:* *maleyka001@mail.ru*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi:* *15.09.2025*
*Nəşr edilmə tarixi:* *28.10.2025*

**AÇAR SÖZLƏRİ:**
Sovet Rusiyası, ermənilər, köçürmə, yerləşdirmə, sosial vəziyyət

**XÜLASƏ**

Məqalədə SSRİ rəhbərliyinin xristian erməni əhalisini xarici ölkələrdən Cənubi Qafqaza köçürməsi və bu əhalinin Qərbi Azərbaycanın (indiki Ermənistan) əsasən hansı ərazilərinə yerləşdirilməsi işıqlandırılmışdır. Bu sahədə Sovet rəhbərliyinin erməni din xadimləri və xaricdə olan erməni diaspor nümayəndəliri ilə apardığı danışıqlar, Sovet rəhbərliyi və erməni din xadimləri və diasporunun xaricdən köçürülən erməni əhalisinə verdiyi vədlər haqqında olan məlumatlar verılmışdır.
Həmçinin bu məqalədə Sovet Rusiyasının mövcud olduğu dövrdə erməni əhalisinin köçürülməsi haqqında verdiyi qərarların sonradan Qərbi Azərbaycan ərazisində yaşayan yerli azərbaycanlıların siyasi, sosial-iqtisadi və mədəni həyatına təsiri haqqında məlumatlar öz əksini tapmışdır.

## GİRİŞ

I Dünya müharibəsinin gedişində Çar Rusiyasının devrilməsini, müharibənin sonunda isə Osmanlı dövlətinin məğlubiyyətini görən erməni din xadimləri, diaspor başçıları və bolşeviklərin əsasən Stepan Şaumyanın başçılıq etdiyi Fövqəladə Komissarlığın məsləhəti ilə Osmanlı dövlətinin ərazisində bir erməni dövləti yaratmağın mümkünsüz olduğunu anladılar. Ona görə də bolşeviklərin Osmanlı dövləti, sonradan Türkiyə Cümhuriyyəti ilə yumşaq münasibətlərini görüb bundan öz xeyirlərinə istifadə etməyə qərar verdilər.

Belə ki, Sovet Rusiyası, Cənubi Qafqazda Qərbi Azərbaycan ərazisində 1918-ci ildə 9 min kv.km-də ilk dəfə elan edilmiş Ararat (Ermənistan) Respublikasının ərazisində sonradan təşkil edilmiş Ermənistan SSR-n ərazisinə ermənilərin kütləvi köçürülməsini təşkil etməyə başladı.

Belə ki, 1921-ci ilin sonunda erməni diasporunun bolşeviklərlə razılaşması nəticəsində İraqdan olan ilk erməni köçkünləri Qərbi Azərbaycan (Sovet Ermənistanı) ərazilərinə göndərildi [ 7].

Sonrakı illərdə isə 1925-1926-cı illər Yunanıstan, Fransa və İrandan Qərbi Azərbaycan ərazisinə 20 minə yaxın erməni göndərildi.

Ümumilikdə 1921-ci ildən 1936-cı ilə qədər erməni din xadimləri və diaspor nümayəndələrinin iştirakı və köməyi ilə 42 mindən çox erməni Qərbi Azərbaycan (Ermənistan SSR) ərazisinə göndərilmişdir [7].

Köçürülən erməni ailələri əsasən Qərbi Azərbaycanın (Sovet Ermənistanı) xarici dövlətlərlə sərhəddi olan bölgələrə yerləşdirilirdilər. Ancaq bu köçürmələri öz nəzarətində saxlayan Ermənistan SSR rəhbərliyi buranın yerli əhalisi olan azərbaycanlıları bu ərazilərdən köçürmək üçün qəsdən və bilərəkdən yerli azərbaycanlılarla gəlmə ermənilər arasında münaqişə yaradaraq bu köçürməyə yerli azərbaycanlıların razı olmadığını və ciddi narazılıqların olduğunu Sovet rəhbərliyinə dəfələrlə yazaraq azərbaycanlıları Pantürkist olmaqda günahlandırmışlar.

Bunun nəticəsi olaraq minlərlə azərbaycanlı ermənilərin yazdığı bu yalan və iftira dolu danoslarla Sovet rəhbərliyinin qərarları ilə güllələnərək məhv edildi.

II Dünya müharibəsinin başlaması və Sovet Rusiyasının qələbə çalması ilə erməni din xadimləri və diaspor nümayəndələri yeni bir həmləylə hərəkətə keçərək bu qələbədən yararlanmaq, xarici ölkələrdən ermənilərin SSRİ ərazisinə əsasən Qərbi Azərbaycan (Sovet Ermənistanı) ərazisinə köçürülməsini təmin etməyə başladılar.

1945-ci ildə qalib dövlətlərin Potsdam konfransında SSRİ rəhbərliyi Türkiyənin şərq ərazilərinə onların təbiri ilə desək "Qərbi Ermənistan"ın ərazisinə erməni əhalisinin qaytarılması məsələsini qaldırdı.

Belə ki, Nyu-Yorkda təşkil olunmuş kütləvi toplantıda "Amerikada Erməni Milli Şurası" adlı "Amerika Erməni Haqları Komitəsi"nin qəbul etdiyi qətnamədə deyilirdi: "Halbuki Türk zülmünün qurbanı olmuş yüz minlərlə erməni xarici ölkələrin ərazilərində, xüsusilə də Yaxın Şərq və Aralıq dənizi bölgəsində artıq xeyli sayda erməni həddindən artıq yoxsulluq şəraitində yaşayır, türklər tərəfindən "Ermənistandan zorla qoparılan erməni vilayəti"nin yenidən Sovet Ermənistanınas birləşdirilməsindən sonra köçürülən ermənilərin Sovet Ermənistanına "öz vətənlərinə" qayıtmaq istəklərini ifadə etmişlər və Türk hökumətinin erməniləri nəsillər boyu amansızcasına sıxışdıraraq qətlə yetirdiyini və Amerika hökumətinin siyasətini xatırlayaraq: Vilsonun erməni xalqına qarşı dostluq siyasəti; Vilson 1920-ci ildə arbitraj qərarında Türkiyənin işğal etdiyi Qars, Ərdahan, Ərzurum, Trabzo erməni vilayətlərinin Ermənistana birləşdirilməsini nəzərdə tuturdu [5,s.256-257].

Bu qətnamənin surəti BMT-nin bütün üzvlərinə göndərildi və bu qətnaməni dəstəkləmək üçün erməni diasporu tərəfindən ayrı-ayrı dövlətlərin Ruminiya, Braziliya, Uruqvay, Argentina ərazisində bu cür mitinqlər təşkil edildi [5, s. 257].

Qətnamədə nəzərdə tutulan müddəalar bunlar idi. Ərazilərin birləşdirilməsini tələb etmək, ermənilərin xarici ölkələrdən Sovet Ermənistanına köçürülməsini təşviq və kömək etmək, erməni işinin müdafiəsini qeyri-şərtsiz Sovet Ermənistanına həvalə etmək, tarixi vətənlə mədəni əlaqələr qurmaq, xaricdə yaşayan ermənilər arasında birlik və həmrəylik yaratmaq, digər erməni təşkilatları ilə əlaqələr yaratmaq və birliyi təmin etmək, milli erməni şuralarının birliyi xəttini inkişaf etdirmək, erməniləri qəbul edən ölkənin qanunlarına hörmət etmək, manifestin bütün bındlərini qeyri-şərtsiz tanımaq [6 ].

Bu tələblərə dəstək olaraq Sovet Ermənistanının rəhbərliyi müxtəlif ölkələrin icmalarında erməni diasporunun köməyi ilə ermənilərin guya ki, "öz vətənlərinə" kütləvi şəkildə qaytarılmasını təşkil etmək üçün geniş iş aparmağa başladı.

Erməni diasporlarının ictimai təşkilatları Sovet Rusiyası hökumətinin məsləhəti ilə guya ki, "tarixi ədalətin bərpası və Qərbi Ermənistan ərazilərinin erməni xalqına qaytarılması xahişi ilə" ABŞ, Fransa, İngiltərə, SSRİ və BMT hökumətlərinə çoxsaylı müraciətlər etməyə başladılar.

SSRİ rəhbərliyi Qərbi Azərbaycan ərazisinin yerli azərbaycan türklərindən təmizlənməsi işinə dövlət səviyyəsində dəstək verməyə başladı. Bu zaman ermənilər bunu Sovet rəhbərliyinə həm Türkiyə, həm də İran sərhədlərinin möhkəmləndirilməsi kimi təqdim edirdilər.

Sovet Rusiyası hökuməti isə xalq qarşısında nüfuzunun artması və öz hərəkətləri ilə dünya ictimaiyyətini erməni xalqının hüquqlarını müdafiə etməyə inandırmaq üçün xaricdə olan erməni diasporunun Sovet Ermənistanına "repatriasiyaya" yəni ermənilərin köçürülmələrinə razılıq verməlяrini təmin etdi.

Erməni diasporu və kilsə xadimləri Sovet hökuməti ilə Türkiyə Cümhuriyyəti arasında olan soyuq münasibətdən istifadə edərək bu köçürmə haqqında qərar verilməsinə nail olmağa çalışırdılar ki, Sovet hökumətinin bu işdə siyasi qərarla bərabər maliyyə dəstəyini də təmin etsinlər

Nəhayət ermənilər buna nail ola bildilrə. Belə ki, 1946-cı il noyabrın 21-də SSRİ Xalq Komissarları Soveti "Xarici ermənilərin Sovet Ermənistanına qaytarılması ilə bağlı tədbirlər haqqında" qərar qəbul etdi. Ermənilərin guya ki, öz "tarixi vətənlərinə" qaytarılması üçün yeni kampaniya başladıldı.

Baxmayaraq ki, Sovet hökuməti 1946-cı ilin noyabr ayında xarici ölkələrdən ermənilərin köçürülməsi ilə bağlı qərar verdi, ancaq hələ 1946-cı ilin iyul ayında Beyrutadan köçürülən ermənilər gəmi ilə Batuma yola salındı.

Oradan Gürcüstan SSR-dən Ermənistan SSR-ə qatar ilə getmələri təmin edildi [8 ].

Batumiyə yola düşmüş ilk erməni karvanı 1946-cı il iyunun sonunda Ermənistan SSR-ə çatdı. Oktyabr ayına qədər daha bir neçə karvan Ermənistan SSR-ə gəldi. Kütləvi erməni köçləri 1947-1948-ci illərdə də davam etdi. Ümumilikdə bu illər ərzində Ermənistana 12 ölkədən 90 minə yaxın erməni gəlib yerləşmişdir [4,s.661].



1946-cı ildə çəkilmiş bu şəkildə ermənilərin geyimlərindən də görünür ki, bu köçürülən ermənilər heç də Sovet rəhbərliyinin təbliğ etdiyi məzlum erməni xalqının nümayəndələri deyil. Bunlar əsasən xaricdə yaşayan erməni diasporunun təşkilatçılığı ilə Sovet Rusiyasına göndərilən diasporanın üzvləri idi. Bu heç də köçürmənin real vəziyyətini əks etdirmirdi. Əsas səbəb isə Sovet rəhbərliyinin, erməni diasporu və din xadimlərinin ermənilərin könüllü olaraq xaricdən Ermənistan SSR-ə köçməsini dünya ictimaiyyətinə göstərməkdən ibarət olmuşdur.

Sovet hökumətinin siyasi maraqlarının təmin edilməsinə gəldikdə isə SSRİ rəhbərliyi çalışırdı ki, Türkiyə Cümhuriyyəti ilə olan sərhədlərini möhkəmləndirsin. Ona görə də I Dünya müharibəsinin gedişində aldadaraq öz tərəfinə çəkdiyi erməniləri türklərlə düşmən vəziyyətinə gətirərək ilk növbədə onların Türkiyə ərazisindən köçməsini təşkil etmiş və sonradan onları Qərbi Azərbaycanın (Ermənistan SSR) Türkiyə ilə sərhədlərinə yerləşdirmişdir.

Ancaq bu siyasətə maneə olan amillərdən birincisi bu ərazilərdə yaşayan yerli azərbaycan türkləri idi. Sovet hökuməti azərbaycanlıların türklərlə eyni kökdən olduğunu nəzərə alaraq onlara inanmırdı və başa düşürdü ki, əgər azərbaycanlı əhalini bu bölgələrdən köçürməsə öz niyyətinə nail ola bilməyəcək.

Ona görə də 1948-ci ilin dekabr ayının 23-də Sovet rəhbərliyi "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı qərar verdi. Qərara uyğun olaraq azərbaycanlıların Qərbi Azərbaycandan köçürülməsi dövlət səviyyəsində təşkil edildi.

Bununla guya ki, Moskva Türkiyə ilə sərhəddə ermənilərin mövqeyini möhkəmləndirmək tədbirləri görürdü. Hələ 1943-cü il noyabrın 28-dən dekabrın 1-dək SSRİ ABŞ və İngiltərənin iştirakı ilə keçirilən Tehran konfransında Sovet-İran münasibətləri müzakirə edilərkən, gələcəkdə "Böyük Ermənistan" dövləti yaratmaq xülyasında olan ermənilər əlverişli şəraitdən istifadə edərək, SSRİ xarici işlər naziri V.Molotova müraciət edib, İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsinə icazə istəmişdilər. V.Molotov İ.Stalinlə danışdıqdan sonra ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsinə razılıq vermişdi. Beləliklə, azərbaycanlıların Ermənistan SSR ərazisindəki dədə-baba torpaqlarından qovulmasının növbəti mərhələsi başlamışdı. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı qərar verdi. SSRI Nazirlər Sovetinin 1948-ci il 10 mart tarixli "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in KürAraz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər

haqqında" daha bir qərarı ilə bu işi həyata keçirmək üçün konkret tədbirlər planı müəyyən olundu [2, s. 110].

Bu qərara görə, 100 min azərbaycanlı 1948-1950-ci illərdə; 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min nəfər guya ki, "könüllülük prinsipinə əsasən" Azərbaycana köçürülməli idi [2, s. 111].

O dövr Qərbi Azərbaycan ərazisində (Ermənistan SSR)-də 400 mindən artıq azərbaycanlı yaşayırdı... 1948-ci ilin payızınadək etnik təmizləməyə məruz qalanların sayı 10.584 nəfər idi. Azərbaycan SSR və Ermənistan SSR rəhbərləri arasında əldə olunmuş razılaşmaya görə, 1949-cu ildə 15713 nəfər (5420 nəfəri yazda, 10293 nəfəri isə payızda) və 3818 təsərrüfat köçürülməli idi. Lakin SSRİ Nazirlər Soveti Azərbaycan SSR və Ermənistan SSR hökumətləri arasında əldə edilmiş razılaşmanı təsdiq etmədi və SSRİ hökumətinin rəsmi nümayəndəsi S.Çeremuşin Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevdən Ermənistan SSR-dən Azərbaycana əvvəlcədən müəyyənləşdirilmiş 40000 nəfər azərbaycanlının köçürülməsini tələb etdi [2, s. 111].

SSRİ rəhbərliyinin bu tələbi Ermənistan SSR rəhbərliyi üçün bir fürsət oldu və onlar azərbaycanlıları öz ata-yurdundan çıxarmaq üçün fəal işə başladılar. Bu deportasiya 1955-ci ilə qədər davam etdi. Rəsmi və qeyri rəsmi olaraq Qərbi Azərbaycan ərazisindən 150 mindən çox azərbaycan türkü çıxarılaraq Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürüldü. Bu əhalinin böyük bir qismi iqlim dəyişikliyi səbəbindən həyatlarını itirməli oldu.

Bununla yanaşı Ermənistan SSR rəhbərliyi Qərbi Azərbaycanda azərbaycan türklərinə məxsus mülklərdə xaricdən bura köçürdükləri erməni ailələrini çox asanlıqla yerləşdirməyə başladılar.

Əslində etnik təmizləmə nəticəsində baş verən əsas hadisələr 1988-ci ilin fevralında baş versə də ermənilər buna kimi erməni millətçiləri arasında təbliğat işləri aparmışlar və hətta keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi ilə bağlı erməni əhalisi arasında imza toplayaraq Moskvaya nümayəndə heyəti göndərərək SSRİ-nin aidiyyatı orqanlarına çatdırmışlar [3, s. 38].

Hələ 1988-ci ilə qədər ermənilər Qərbi Azərbaycanda yaşayan azərbaycan türklərinin xeyli hissəsini etnik təmizləməyə məruz qoymuşdular. 1988-1991-ci illərdə isə Ermənistan SSR-nin ayrı-ayrı rayonlarının ərazisində 250.000 (iki yüz əlli min)dən çox azərbaycan türkünu son nəfərinə qədər Qərbi Azərbaycan ərazisindən öz ata-baba yurdlarında didərgin salaraq dünyanın ayrı-ayrı ölkələrinin ərazisinə göndərərək qaçqın halına salmışlar. Hazırda Qərbi Azərbaycan ərazisində bir nəfərdə olsun azərbaycan türkü qalmamışdır.

1988-ci ilə qədər hələ də azərbaycan türk əhalisinin yaşadıqları kəndlərin çoxunun adları vaxtilə onların ulu babaları tərəfindən qoyulmuş azərbaycan türkcəsində idi. Ancaq ermənilər 1988-ci ildən sonra bu adları kütləvi surətdə erməni adına dəyişdirmişlər.

Ümumiyyətlə Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisindən son 200 ildə 2 mindən artıq azərbaycan türklərinin yaşadığı yaşayış məskənləri müxtəlif yollarla (rəsmi köçürmələrlə, silah gücünə qovmaqla, soyqırım törədərək kəndləri yandırıb xaraba qoymaqla) siyahıdan silinmiş, tarixi Azərbaycan torpaqlarında monoetnik Ermənistan dövləti yaradılmışdır [1, s. 271].

Faktlardan da görünür ki ermənilər ayrı-ayrı vaxtlarda Qərbi Azərbaycan ərazisində yaşayan azərbaycanlıları deportasiya və soyqırıma məruz qoymuşdur.

## SUMMARY

## RESETTLEMENT OF ARMENIANS FROM FOREIGN COUNTRIES TO WESTERN AZERBAIJAN: CAUSES AND CONSEQUENCES

**Maleyka Mahmudova**

The article highlights the relocation of Christian Armenian populations from foreign countries to the South Caucasus under the leadership of the USSR, and the specific regions of Western Azerbaijan (present-day Armenia) where they were primarily settled. It provides information on the negotiations conducted by the Soviet leadership with Armenian

clerics and representatives of the Armenian diaspora abroad, as well as the promises made by the Soviet government, Armenian clergy, and diaspora to the Armenians being resettled.
The article also reflects on the consequences of these Soviet-era decisions on the resettlement of Armenians, particularly their impact on the political, socio-economic, and cultural life of the local Azerbaijani population living in the territory of Western Azerbaijan.
**Keywords:** Soviet Russia, Armenians, resettlement, settlement, social conditions

## АННОТАЦИЯ

## ПЕРЕСЕЛЕНИЕ АРМЯН ИЗ ЗАРУБЕЖНЫХ СТРАН В ЗАПАДНЫЙ АЗЕРБАЙДЖАН: ПРИЧИНЫ И ПОСЛЕДСТВИЯ

**Малейка Махмудова**

В статье освещается переселение христианского армянского населения из зарубежных стран на Южный Кавказ под руководством СССР, а также указывается, на какие территории Западного Азербайджана (современной Армении) они в основном были размещены. Представлены сведения о переговорах советского руководства с армянскими духовными деятелями и представителями армянской диаспоры за рубежом, а также о тех обещаниях, которые давали переселяемым армянам советское руководство, армянское духовенство и диаспора.
Кроме того, в статье отражаются последствия решений Советской России о переселении армян, их влияние на политическую, социально-экономическую и культурную жизнь местного азербайджанского населения, проживавшего на территории Западного Азербайджана.
**Ключевые слова:** Советская Россия, армяне, переселение, размещение, социальное положение

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycanın əzəli və əbədi torpağı. İrəvan xanlığı (indiki Ermənistan, 4 cilddə). (2020). (Cild III). Bakı: Nurlan Nəşriyyat-Poliqrafiya Mərkəzi.
2. Azərbaycan tarixi. (2008). Yeddi cilddə (Cild VII: 1941–2002-ci illər). Bakı: Elm.
3. Erməni terrorizm və cinayətləri: Azərbaycanda, Türkiyədə və dünyada. (1994). Bakı: Elm.
4. Mahmudova, M. (2025). Erməni diasporu və ermənilərin xaricdən SSRİ-ə köçürülməsi. Turan Beynəlxalq Elmi Konfransı (Türk Dünyası Dünən, Bugün və Sabah)* (s. 658–667). Sivas: Yönətim Yayınları.
5. Seidbekova, L. (2012). Отражение факта территориальных притязаний Армянской и Грузинской ССР к Турции во II-ой половине 40-х гг. XX века в Советской и Турецкой Пресс. Tarix və onun problemləri, 2, 256–261.
6. Коммунист (Орган ЦК Компартии Армении). (1946, noyabr 4).
7. Хачикян, А. Э. (2009). История Армении. Краткое эссе. Ереван: Эдит Принт.
8. Repatriation armyan iz Livana v Sovetskuyu Armeniyu, Foto / Istoriya. (2023, August 19). Vstrokax. [https://vstrokax.net/istoriya/repatriacziya-armyan-iz-livana-v-sovetskuyu-armeniyu-foto/